# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

**"Rusiyanın mövqeyi beynəlxalq hüququn prinsipləri ilə ciddi ziddiyyət təşkil edir"**



3

# "Elektrik enerjisi ilə təchizat bütün ölkəni əhatə edib"

Bakı şəhəri və Abşeron yarımadasında su təchizatı, tullantı və yağış suları sistemlərinin təkmilləşdirilməsinə dair Dövlət Proqramına həsr olunan müşavirə keçirilib



2


SƏS

№ 003 (7413)

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

13 yanvar 2026-cı il.
Qiymәti 1 manat


# İrəvanda vəziyyət gərginləşir - II Qaregin "iki dağ" arasında...

*O, nədə ittiham olunur?*



4

**Bəhruz Quliyev: "Səs" tarixə düşmüş bir qəzetdir**



5

**Molla rejiminin hakimiyyətdə qalma layihəsi başa çatır**



6

**Ən çox harada yanılırıq? - xaricdən avtomobil alanların buraxdığı əsas səhvlər...**




8

**150 yaşlı milli mətbuatın 35 illik "Səs"i**



6

**Okeanların istilik rekordu: 9 il ardıcıl...**



7

# "Elektrik enerjisi ilə təchizat bütün ölkəni əhatə edib"

## Bakı şəhəri və Abşeron yarımadasında su təchizatı, tullantı və yağış suları sistemlərinin təkmilləşdirilməsinə dair Dövlət Proqramına həsr olunan müşavirə keçirilib

***Yanvarın 12-də Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Bakı şəhəri və Abşeron yarımadasında su təchizatı, tullantı və yağış suları sistemlərinin təkmilləşdirilməsinə dair 2026-2035-ci illər üzrə Dövlət Proqramına həsr olunan müşavirə keçirilib. Müşavirədə dövlətimizin başçısı çıxış edib. Prezident İlham Əliyev öz çıxışında diqqətə çatdırıb ki, ölkəmizdə son illər ərzində genişmiqyaslı infrastruktur layihələri icra edilib, həm Bakıda, həm bütün bölgələrdə. Demək olar ki, əsas infrastruktur məsələləri öz həllini tapıb. Dövlətimizin başçısı qeyd edib ki, iyirmi il ərzində bir neçə regional inkişaf proqramı qəbul edilib, hər proqram beş ili əhatə edirdi və proqramlar uğurla icra olundu.***

"Biz bunun nəticəsində əsas infrastruktur məsələlərini həll etdik. İlk növbədə elektrik enerjisi ilə təchizat bütün ölkəni əhatə etmişdir. Tamamilə yeni mərhələyə qədəm qoyduq. Bu yaxınlarda yeni külək elektrik stansiyasının açılışında bu məsələyə bir qədər toxundum, bu gün bizim enerji generasiya gücümüz tələbatımızdan daha artıqdır. Hətta biz elektrik enerjisini ixrac edirik. Vaxt var idi ki, bu məsələ ilə bağlı ciddi problemlər mövcud idi, enerji qıtlığı mövcud idi. Biz hətta xaricdən elektrik enerjisini idxal etməyə məcbur idik. Bu gün isə görülmüş tədbirlər nəticəsində həm generasiya gücləri yaradıldı, - hazırda təqribən 10 min meqavata yaxındır, - eyni zamanda, yarımstansiyalar, ötürücü xətlər, paylayıcı şəbəkə - bütün bu məsələlər vahid sistem halına salınmışdır. Vaxtilə bu sahədə qüsurların böyük hissəsi aradan qaldırılmışdır. Biz bu gün nəinki öz enerji tələbatımız haqqında, - bu məsələ həll edilmiş hesab olunur, - ixrac yolları haqqında düşünürük və nəinki düşünürük, onları biz yaradırıq. Azərbaycan bir neçə ildən sonra, - necə ki, bu gün nefti, qazı dünya bazarlarına ixrac edir və bir çox ölkələrin enerji təhlükəsizliyini təmin edir, - eyni səviyyədə elektrik enerjisini dünya bazarlarına ixrac edəcək. Qeyd etməliyəm ki, buna nail olmaq üçün indi qonşu dövlətlərlə və bizim şirkətlərlə, qonşu ölkələrin şirkətləri ilə ciddi danışıqlar aparılır.

Biz qazlaşma məsələlərini böyük dərəcədə həll etmişik. Bu gün ölkəmizdə qazlaşma 96 faizə çatıbdır. Mən bunu deməklə yaşayış məntəqələrini yox, əhalini nəzərdə tuturam. Əhalinin 96 faizi bu gün təbii qazla təchiz edilib. Bu da son 20 il ərzində aparılan infrastruktur layihələri arasında xüsusi yer tutan məsələdir. Çünki vaxtilə bizim qaz təchizatımız daxili tələbatı ödəməyə imkan vermirdi. Biz qazı da xaricdən idxal edirdik və böyük çətinliklərlə üzləşirdik. Bu gün isə dünyanın 10-dan çox ölkəsi, - bu ölkələrin sayı ildən-ilə artır və bu il də yeni ölkələr bu siyahıya daxil ediləcək, - Azərbaycan təbii qazını alıb öz enerji təhlükəsizliyini gücləndirir."

Dövlətimizin başçısı daha sonra qeyd edib ki, avtomobil yollarının inşası geniş vüsət alıb. Bu gün həm magistral, həm kənd yolları, şəhərlərarası yollar - bu layihələr icra edilir. Hazırda işğaldan azad edilmiş ərazilərdə dediyim bütün bu infrastruktur layihələri icra edilir. Elektrik enerjisi, generasiya gücləri, ötürücü xətlər, yollar, körpülər, tunellər, su təchizatı, qazlaşma və bütövlükdə uzun illər işğal altında qalmış ərazilər dirçəlir, həyata qayıdır və vahid infrastruktur şəbəkəsinə qoşulur.

"İçməli su və suvarma layihələri də həmişə diqqət mərkəzində olub. Azərbaycan vətəndaşları yaxşı xatırlayırlar ki, vaxtilə bu, insanları narahat edən ən ciddi məsələlərdən biri idi. Bu məsələlər də tədricən öz həllini tapmışdır. Bu gün bizim əksər şəhərlərimizdə içməli su, kanalizasiya layihələri icra edilmişdir və bu proses davam etdirilir.



**Azərbaycan Prezidenti: Yağış sularının idarə olunması üçün Bakının 30 küçəsində yeni kollektor şəbəkəsi qurulacaq**

Biz son 20 il ərzində dörd böyük su anbarı inşa etmişik və bu su anbarlarının potensialı 500 milyon kubmetrdən çoxdur. Onların arasında xüsusilə "Taxtakörpü", "Şəmkirçay" su anbarlarını qeyd etməliyəm. Əgər bu su anbarları tikilməsəydi, bu gün həm Bakının su təchizatı, həm də qərb zonasının su təchizatı böyük problemlərlə üzləşə bilərdi. "Taxtakörpü" su anbarı bizə imkan verdi ki, Samur çayının sularını "Ceyranbatan" su anbarına yığaq və orada ehtiyat yaransın. O cümlədən "Ceyranbatan" su anbarı tamamilə yenidən qurulmuşdur, yeni, müasir təmizləyici qurğular kompleksi inşa edilmişdir.

Bu gün biz azad edilmiş ərazilərdə içməli su və suvarma layihələrini icra edirik. Son beş il ərzində bir neçə önəmli layihə başa çatıb. Vaxtilə Ermənistan tərəfindən dağıdılmış və yararsız vəziyyətə salınmış su anbarları əsaslı təmir edilib. Onların arasında, ilk növbədə "Sərsəng" su anbarını qeyd etməliyəm. Bu, nəinki azad edilmiş ərazilərdə, bütövlükdə ölkəmizdə ən böyük su anbarlarından biridir. Vaxtilə torpaqlarımız işğal altında olanda Ermənistan dövləti bizə qarşı su terroru da həyata keçirirdi. "Sərsəng" və "Suqovuşan" su anbarlarının sularının bağlanması və sudan bir silah kimi istifadə edilməsi bizə böyük problemlər yaradırdı. Su lazım olan aylarda kəsilirdi, ondan sonra buraxılırdı və bu, böyük daşqınlara səbəb olurdu. Yəni, əslində, Ermənistan dövləti su terroru həyata keçirirdi. Bu gün isə "Suqovuşan" su anbarı, "Sərsəng" su anbarı tamamilə yenidən qurulub. Azad edilmiş digər torpaqlarda - Füzuli rayonunda "Köndələnçay" - üç su anbarı yenidən qurulub, Ağdam rayonunda "Xaçınçay" su anbarı yenidən qurulub. Laçın rayonunda tamamilə yenidən qurulmuş "Zabuxçay" su anbarı bu gün artıq istismardadır. Azad edilmiş ərazilərdə daha iki böyük su anbarının - "Həkəriçay", "Bərgüşadçay" su anbarlarının tikintisi də nəzərdə tutulur və artıq hazırlıq işləri gedir. Yəqin ki, biz bu il artıq praktik işlərə başlayacağıq.

Su mənbələri hər bir ölkə üçün çox önəmlidir. Bizim su mənbələrinin təqribən dörddəbir hissəsi vaxtilə işğal altında olmuş ərazilərdə formalaşır. Bu su mənbələrinin üstünlüyü də odur ki, bunların əksəriyyəti Azərbaycan ərazisində formalaşır. Yəni başqa ölkələrdən asılılıq ərazilərimizin qaytarılması nəticəsində böyük dərəcədə azalıb. Bizim digər əsas su mənbələrimiz xaricdə formalaşır - Kür çayı, Araz çayı, Samur çayı. Əlbəttə ki, bu sahəyə olan diqqət bu həssas məsələni də nəzərə almalıdır."

Prezident İlham Əliyev öz çıxışında diqqətə çatdırıb ki, bu gün dünyada iqlim dəyişikliyi ilə bağlı ciddi narahatlıq hökm sürür. Bir çox ölkələr artıq bundan ciddi zərər görür. "Bizim su təhlükəsizliyimizlə bağlı olan bütün məsələlər sistem şəklində öz həllini tapır. Qeyd etdiyim kimi, son 20 il ərzində ancaq sadaladığım, - halbuki görülən işlər qat-qat çoxdur, - layihələr onu göstərir ki, əgər vaxtında bu addımlar atılmasaydı, bu gün su təhlükəsizliyimizlə bağlı olan məsələlər bizim üçün çox ciddi problemlər yarada bilərdi. Bizim məqsədimiz isə əhalini və sənayeni, kənd təsərrüfatını dayanıqlı su ilə təmin etməkdir, su mənbələrini qorumaqdır, su anbarlarının potensialını artırmaqdır, uçotu tam yaratmaqdır və mövsüm gələndə suları yığmaqdır ki, sonra il boyunca onlardan istifadə edək.

**Prezident İlham Əliyev: Azad edilmiş ərazilərdə daha iki böyük su anbarının tikintisinə hazırlıq işləri gedir**

Bakının və Abşeron yarımadasının içməli su problemləri əfsuslar olsun ki, uzun illər ciddi problem kimi qarşımızda durur. Qeyd etdiyim kimi, bu istiqamətdə müəyyən işlər görülüb. Ancaq mən hesab edirəm, vaxt gəlib çatıb ki, genişmiqyaslı və müfəssəl dövlət proqramı qəbul edilsin. Bu proqram Bakı şəhərini, onun qəsəbələrini, Sumqayıt şəhərini və Abşeron rayonunu əhatə edəcək. Bir müddət bundan əvvəl mənim göstərişimlə proqramın hazırlanması prosesi başlamışdır və demək olar ki, proqram hazırdır. Biz bu gün həm bu proqramı müzakirə edəcəyik, eyni zamanda, görülmüş işlərdən danışacağıq və görüləcək işlərlə bağlı müzakirə aparacağıq.

Bu proqramın əsas məqsədi, qeyd etdiyim kimi, Bakı və Abşeron yarımadasını dayanıqlı içməli su ilə təmin etməkdir. Proqram 2035-ci ilə qədər icra olunmalıdır. Bu fakt özlüyündə göstərir ki, nə qədər genişmiqyaslı proqramdır, çünki vaxt lazımdır biz bunu tam icra edək. Proqramın icrası üçün maliyyə mənbələri müəyyən edilib. Bu, iki mənbədən maliyyələşəcək, həm dövlət büdcəsi hesabına, həm də xarici kreditlər hesabına. Deyə bilərəm ki, son illər ərzində burada da aparılan islahatlar imkan verdi ki, biz xarici borcumuzu böyük dərəcədə aşağı salaq və salmışıq da. Bu gün dünya miqyasında xarici borcun ümumi daxili məhsula nisbətdə Azərbaycan dünyada aparıcı yerlərdədir, bu, cəmi 6 faizdən bir qədər çox təşkil edir. Yəni bu, deməyə əsas verir ki, bu gün biz daha çox xarici kreditlərə müraciət edə bilərik, xüsusilə nəzərə alsaq ki, dünyanın aparıcı maliyyə təsisatları bizə müraciətlər edirlər."

Bu gün problemlərdən biri həm də itkilərlə bağlıdır. Əgər itkilər aşağı səviyyədə olsaydı, hətta mövcud su ehtiyatı bizə bu gün kifayət edərdi. Halbuki biz baxmalıyıq, gələcəyi də hesablamalıyıq. Çünki əhali artır, sənaye artır, təbii ki, tələbat da artır. Ona görə itkilərin kəskin azaldılması əsas məsələlərdən biridir. Bu gün bu sahədə itkilər təqribən 40-45 faizdir və qeyd etdiyim kimi, proqramın icrası nəticəsində bu, kəskin azalmalıdır.

Bu gün kanalizasiya xidməti göstərilən əhali cəmi 50 faiz təşkil edir. Proqramın icrası nəticəsində bu, 95 faizə çatdırılmalıdır. Leysan yağışları yağan kimi şəhər nəqliyyatı iflic vəziyyətinə düşür, çox ciddi problemlər yaşanır. Düzdür, bu, təkcə Bakıda, Azərbaycanda deyil. Biz televiziya verilişlərində dünyanın istənilən yerində bunu görürük. Hətta ən inkişaf etmiş hər ölkənin şəhərlərində də daşqınlar adi hal alıb. Heç bir şəhərin infrastrukturu imkan vermir ki, əgər şiddətli leysan yağışları bir neçə gün davam etsə, bunu idarə etmək mümkün olsun. Ancaq buna baxmayaraq, bizim də bu sahədə zəif yerlərimiz kifayət qədər çoxdur. Ona görə yağış sularının idarə olunması üçün Bakının 30 küçəsində yeni kollektor şəbəkəsi də qurulacaq və bunun çox böyük faydası olacaq.

Dənizə buraxılan sular 100 faiz təmizlənməlidir. Xəzər dənizinin çirklənməsinin əsas amillərindən biri də budur. Ona görə burada da lazımi əlavə tədbirlər görüləcək. Hövsan sutəmizləyici stansiyasının modernləşdirilməsi və potensialının genişləndirilməsi də gündəlikdə duran məsələdir.

Su sektorunda rəqəmsal idarəetmə sistemi də tətbiq edilməlidir. Mən artıq bu barədə məlumat verdim. Bir daha demək istəyirəm ki, Abşeron yarımadasının su təchizatını yaxşılaşdırmaq üçün ilk dəfə olaraq ölkəmizdə duzsuzlaşdırma zavodu inşa ediləcək. Bu prosesə start verildi. Bunun üstünlüyü ondan ibarətdir ki, bu, sırf xarici investisiyalar hesabına həyata keçiriləcək layihədir. Bu imkan verəcək ki, biz Bakıya və Abşeron yarımadasına gələn suların həcmini artıraq. Bu sahədə texnoloji inkişaf da göz önündədir. Bizim Xəzər dənizinin suyu o qədər də duzlu deyil, yəni tam əminlik var ki, duzsuzlaşdırma nəticəsində əhali təmiz və keyfiyyətli içməli su ilə təmin ediləcək və eyni zamanda, suvarma üçün də böyük mənbə yaranacaqdır".

Daha sonra Baş nazirin müavini Şahin Mustafayev, Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov çıxış edərək görülən işlər və qarşıda duran vəzifələr barədə danışıblar.

# "Hər dəfə bayrağımız bir kəndə, şəhərə sancılanda, mənim üçün Azərbaycan məhz o torpaq idi"

44 günlük Vətən müharibəsində əldə edilən tarixi Zəfər yalnız hərbi deyil, həm də hüquqi və siyasi baxımdan suverenlik dəyərlərinin möhkəmləndirilməsi anlamına gəlir. Xalqımız Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə əzəli torpaqlarımızın işğaldan azad edilməsi, ərazi bütövlüyünün, dövlət suverenliyinin və ölkənin bütün ərazilərində Azərbaycan Respublikası Konstitusiyasının hüquqi qüvvəsinin tam bərpasının qürurverici təntənəsini yaşayır.

"Vətən müharibəsi dövründə torpaq mənim üçün hər azad edilmiş kəndin timsalında, necə deyərlər, ortaya çıxırdı və hər bir şəhidin şəhid olduğu yer mənim üçün torpaq idi. Hər gün itkilərlə bağlı məlumat alanda hansı hissləri keçirirdim, bunu sözlə demək mümkün deyil". Bu fikri Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsində deyib. Dövlətimizin başçısı Vətən müharibəsi dövründə bir neçə dəfə əməliyyatın istiqamətinin dəyişdirilməsinin, müharibənin noyabrın 10-da dayandırılmasının mümkün itkilərin qarşısının alınması ilə bağlı olduğunu qeyd edərək bildirib: "Hər dəfə bayrağımız bir kəndə, şəhərə sancılanda, mənim üçün Azərbaycan məhz o torpaq idi".



## "Azad edilmiş bütün bölgələri mərkəzlə, mərkəzi infrastrukturla faktiki olaraq birləşdirdik"

Postmüharibə dövründə Qarabağ və Şərqi Zəngəzurda yenidənqurma işləri, məcburi köçkünlərin doğma torpaqlarına qaytarılması və iqtisadi inteqrasiya layihələri suveren dövlət anlayışının real təcəssümü olub.

Qarabağın və Şərqi Zəngəzurun bərpası Azərbaycan dövlətinin ən prioritet istiqamətlərindən biridir. Böyük Qayıdışa dair Birinci Dövlət Proqramının icrası uğurla reallaıb. " İşğaldan azad edilən ərazilərin Azərbaycanın iqtisadi zəncirinə cəlb olunması üçün yeni institusional addımların atılması planlaşdırılırmı?" sualını dövlətimizin başçısı belə cavablandırıb: " Bəli, təbii. Çünki, ilk növbədə, biz gərək bu bölgələr arasında bağlantılar yaradaydıq. Çünki işğal dövründə oradakı vəziyyət acınacaqlı idi. Siz hamınız - Azərbaycan vətəndaşları o bölgələrdə olarkən, xüsusilə işğaldan azad ediləndən sonrakı ilk aylar ərzində görürdük ki, vəziyyət çox acınacaqlı idi. Hətta mən özüm də dəfələrlə orada olarkən özümə sual verirdim: bəs bu qədər milyonlar, yüz milyonlarla telemarafonlar, - ermənilər hər il yüz milyonlarla pul yığırdılar, - bu pul hara gedirdi? Mən onu orada görmədim. Ancaq bəlkə də orada separatçıların villalarını saymaq olar, amma nə ictimai binalar, nə də hansısa yaşayış binaları var idi. Faktiki olaraq, orada həyat sanki XX əsrin 70-ci illərində dayanıb. Məndə belə təəssürat var idi. Mən 1970-ci illərdə dəfələrlə Azərbaycanın bölgələrində olmuşam və sanki o xatirələr qayıtmış oldu.

Ona görə biz bu bölgələri canlandırmaq üçün gərək bağlantılar, enerji təminatı yaradaydıq. Bu işlə məşğul olduq və azad edilmiş bütün bölgələri mərkəzlə, mərkəzi infrastrukturla faktiki olaraq birləşdirdik. Enerji sistemi - dairəvi enerji sistemi quruldu və bu gün mərkəzdən oraya yox, oradan mərkəzə enerji daxil olur".

## "Hər şey ardıcıllıqla, Baş plan əsasında edilir"

44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz işğal altında olan torpaqlarımızı azad etdi. Bu gün bu torpaqlara yeni həyat vermək üçün bütün qüvvələr səfərbər edilib, dağılan şəhər və kəndlərimizdə bərpa və quruculuq bərpa işləri davam etdirilir. Dövlətimiz öz torpaqlarını azad etməklə tarixi inkişafının irimiqyaslı bərpa-quruculuq layihələri ilə səciyyələnən, dayanıqlı sülhə, tərəqqiyə əsaslanan və bir çox ölkələr üçün nümunə olan yeni mərhələsinə qədəm qoymuşdur.

İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışın Azərbaycanın 2030-cu ilədək beş Milli Prioritetindən biri kimi müəyyən olunması, Prezident İlham Əliyevin Sərəncamı ilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın təsdiq edilməsi, qəbul olunmuş digər sənədlər və həyata keçirilən məqsədyönlü və genişmiqyaslı layihələr yeni inkişaf mərhələsindəki hədəflərə çatmağa xidmət edərək dövlətimizin Qarabağın və Şərqi Zəngəzurun dirçəlişində, əhalinin dayanıqlı məskunlaşmasında və davamlı iqtisadi inkişafın təmin olunmasında məqsədyönlülüyünün göstəricisidir. "İnfrastruktur layihələri icra edildikcə təbii ki, evlərin tikintisinə daha böyük vəsait veriləcək. Amma hər şey ardıcıllıqla, Baş plan əsasında edilir. Biz həm tələsirik, həm də tələsməməliyik. Çünki bəzi hallarda tələskənliyə yol verərkən keyfiyyət uduzur. Yaxud da ki, hansısa işi keyfiyyətsiz edənlər deyirlər ki, bəs tələsmişəm, mən bunu filan tarixdə təhvil verməli idim. Mən hamıya dedim, bax, ictimaiyyətə də deyə bilərəm ki, heç vaxt heç bir tarix qoymamışam. Bu il üçün də heç bir tarix qoymamışam. Nə vaxt hazır olacaq, o vaxt hazır olacaq. Amma hər şey gərək keyfiyyətli olsun və təbii ki, ictimai nəzarət də olmalıdır", - deyə Prezident bildirib.

## "Bu gün artıq 70 min insan orada yaşayır"

Azərbaycan bu gün quruculuq meydanında da imza atdığı lahiyələri ilə sözünü deyir. Dövlət başçısının bildirdiyi kimi "Bu gün artıq 70 min insan orada yaşayır. Təbii ki, onların hamısı köçkün deyil. Ancaq işləyənlər və əksəriyyət köçkün deyil. Otuz iki şəhər və kənddə. Bu il biz orada yaşayanların sayını bir neçə dəfə artıra bilərik. Amma hələ ki, heç bir rəqəm demək istəmirəm. Çünki ola bilir, bəzi hallarda işin icrası uzanır. Amma hesab edirəm ki, ən azı 30-50 kənddə biz insanları yerləşdirə bilərik və beləliklə, ola bilər 120, 130, 140 min əhali bu ilin sonuna qədər orada yaşayacaq, çalışacaq."

İşğaldan azad olunan ərazilərdə böyük abadlıq-quruculuq işləri davam etdirilir. Bildiyimiz kimi, azad olunmuş Qarabağ və Şərqi Zəngəzur yaşıl enerji zonası elan edilmişdir. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası nəticəsində nəzərdə tutulan hədəf göstəricilərinə uyğun olaraq 2026-cı ilədək ərazilərdə görüləcək işlər əhalinin təhlükəsizliyinin təmin olunmasına, eləcə də etibarlı, keyfiyyətli və dayanıqlı infrastrukturla təminatın həyata keçirilməsinə su, qaz, elektrik, istilik və s. infrastrukturun yenidən qurulmasına və s. yönəldilib. "Çünki biz beş il ərzində 307 meqavat gücündə su elektrik stansiyaları yaratmışıq və əlbəttə ki, azad edilmiş bölgələrdə istehlak qat-qat aşağıdır. Ona görə biz bu dairəvi sistemi yaratmaqla bu gün enerji axınını ölkə üzrə lazımi səviyyədə bölə bilərik".

Qarabağ və Şərqi Zəngəzur yeni inkişaf dövrünü yaşayır. "Dəmir Yumruğu"n yaratdığı yeni reallıqlarla hər kəs hesablaşmalıdır. Dövlət başçısının Qarabağ və Şərqi Zəngəzuru yaşıl enerji bölgələri elan edib və həmin ərazilərin sosial-iqtisadi inkişafı ilə bağlı nəzərdə tutulan layihələr icra olunmaqdadır. Vurğulamaq yerinə düşər ki, Azərbaycanın yaratdığı yeni reallıqlar regional sülh, sabitlik, təhlükəsizlik baxımından strateji əhəmiyyət kəsb edir.

***Zümrüd BAYRAMOVA***

# "Rusiyanın mövqeyi beynəlxalq hüququn prinsipləri ilə ciddi ziddiyyət təşkil edir"

"Rusiyanın AZAL-a məxsus mülki təyyarənin vurulması ilə bağlı nümayiş etdirdiyi mövqe beynəlxalq hüququn fundamental prinsipləri ilə ciddi ziddiyyət təşkil edir və Moskvanın uzun illərdir formalaşdırdığı məsuliyyətdən yayınma davranış modelinin növbəti nümunəsi kimi dəyərləndirilə bilər". Bu sözləri SİA-ya açıqlamasında politoloq Yusif Bağırov bildirib.

Onun sözlərinə görə, mülki aviasiyanın təhlükəsizliyi və toxunulmazlığı beynəlxalq hüququn ən həssas və universal sahələrindən biridir. Bu sahədə qəbul edilmiş konvensiyalar və normalar açıq şəkildə göstərir ki, mülki hava gəmilərinə qarşı hər hansı zorakı müdaxilə dövlət məsuliyyəti yaradır və bu məsuliyyətin inkarı hüquqi baxımdan qəbulolunan deyil. Buna baxmayaraq, Rusiya tərəfinin hadisəyə münasibəti hüquqi məsuliyyəti qəbul etməkdən daha çox, məsələni siyasiləşdirmək və diqqəti əsas mahiyyətdən yayındırmaq cəhdləri ilə xarakterizə olunur. Belə yanaşma təkcə konkret hadisə üzrə deyil, ümumilikdə beynəlxalq hüquqa selektiv münasibətin göstəricisidir. Mülki aviasiya insidentlərinin istintaqı və hüquqi qiymətləndirilməsi emosional və ya geosiyasi arqumentlər üzərindən deyil, şəffaf texniki sübutlar və beynəlxalq hüquqi mexanizmlər əsasında aparılmalıdır. Bu baxımdan Moskvanın mövqeyi beynəlxalq hüquq mədəniyyətinə zidd presedent formalaşdırmaq riski daşıyır.





Mövcud şəraitdə Azərbaycanın atacağı addımlar qısamüddətli emosional reaksiyalardan daha çox, strateji düşüncəyə və hüquqi əsaslara söykənməlidir. İlk növbədə, məsələ beynəlxalq hüquqi müstəvidə ardıcıl və sistemli şəkildə gündəmdə saxlanılmalıdır. Aidiyyəti beynəlxalq təşkilatlar, xüsusilə mülki aviasiya təhlükəsizliyi ilə məşğul olan qurumlar çərçivəsində bu hadisənin mülki aviasiya qaydalarının kobud şəkildə pozulması kimi tanınması üçün hüquqi mexanizmlər aktivləşdirilməlidir. Texniki sübutların, radar qeydlərinin, uçuş məlumatlarının və müstəqil ekspertiza rəylərinin beynəlxalq tərəfdaşlarla paylaşılması Azərbaycanın mövqeyini hüquqi baxımdan daha möhkəm və inandırıcı edir. Digər mühüm istiqamət diplomatik xəttin rasional şəkildə balanslaşdırılmasıdır. Diplomatik etiraz notalarının verilməsi və beynəlxalq səviyyədə məsuliyyət məsələsinin qaldırılması legitim və zəruri addımlardır. Rusiya tərəfinin tez-tez qarşı tərəfi emosional davranışda ittiham etməsi əslində diqqəti əsas hüquqi məsuliyyətdən yayındırmaq məqsədi daşıyır. Azərbaycanın üstünlüyü isə hüquqa söykənən, ardıcıl və faktlara əsaslanan mövqeyindədir ki, bu da uzunmüddətli perspektivdə daha təsirli diplomatik nəticələr doğurur. Azərbaycanın optimal strategiyası birbaşa və tələsik qarşıdurma deyil, "səbrli və sistemli təzyiq" xəttinə əsaslanmalıdır. Ardıcıl hüquqi təşəbbüslər, ölçülmüş diplomatik addımlar və beynəlxalq müstəvidə davamlı gündəm yaratmaq uzunmüddətli perspektivdə Moskvanı mövqeyini yenidən nəzərdən keçirməyə vadar edə bilər. Bu yanaşma həm beynəlxalq hüququn aliliyinin qorunmasına, həm də Azərbaycanın dövlət maraqlarının rasional və effektiv şəkildə müdafiəsinə xidmət edir".

***Günay Hacıyeva***

# İrəvanda vəziyyət gərginləşir - II Qaregin "iki dağ" arasında...

## O, nədə ittiham olunur?



2026-cı il Ermənistanda kilsə böhranının pisləşməsi ilə başladı. Baş nazir Nikol Paşinyan Erməni Apostol Kilsəsində (EAK) islahat aparmaq üçün bir şura yaradıb və katolikos II Qaregin ən yüksək rütbəli rəqiblərini kilsədən qovmağın vaxtı gəldiyinə qərar verib. 11 yanvar səhəri Paşinyan alqışlar altında Zəngibasardakı (Masis) "Müqəddəs Taddeus Kilsəsi"nə daxil olub. Orada, qəbul edilmiş ənənəyə uyğun olaraq, EAK lideri II Qareginin əleyhdarları üçün bazar günü keçirilən liturgiyada iştirak edib. İqtisadiyyat naziri Gevorq Papoyanın qonaq jurnalistlərə izah etdiyi kimi, Ermənistan hökuməti katolikosun dəyişdirilməsinə "milli təhlükəsizlik məsələsi" kimi baxır, çünki hazırkı patriarx respublikanın maraqlarına xidmət etmir.

Paşinyanın həyat yoldaşı Anna Hakobyan katolikosu Ermənistana qarşı müharibə aparmaqda günahlandırdı. O, həmçinin bildirib ki, II Qaregin hakimiyyəti dövründə imanın mənəvi gücünü və qüdrətini "zədələyib", lakin ermənilər unutmamalıdırlar ki, Qriqor Narekatsi və Komitasın qanı onların damarlarında axır. "Bu gün dövlət səviyyəsində xristianlığı qəbul edən ilk xalq olaraq, biz eyni qətiyyətlə mənəvi özümüzü və Erməni Apostol Kilsəsini müdafiə edirik, layiqsiz insanların mənəvi hakimiyyətimizi alçaltmasına, imanımızı və ruhumuzu əcnəbilərin ayağına atmasına, bununla da kimliyimizi və dövlətimizi zəiflətməsinə imkan verməyərik", - deyə Akopyan bildirib.

Masisdəki mərasimə Gevorq Saroyan sədrlik edib. Bir gün əvvəl II Qaregin onu arxiyepiskop vəzifəsindən azad edib və bunu primatın səlahiyyətlərindən sui-istifadə etməsini, vəzifələrini yerinə yetirməməsini və yeparxiyanın ruhanilərinə təzyiq göstərməsini əsas gətirib. Lakin katolikosun sadəcə olaraq yeni lider təyin etmək üçün islahat tələb edənləri kilsə rəhbərliyindən qovmağa çalışdığı sirr deyil. Arximandrit Ruben Zaryan Saroyanı Masyatsotn yeparxiyasının müvəqqəti rəhbəri vəzifəsində əvəz edib. Paşinyan və Saroyan Masisdə dua edərkən, o, Araratdakı Müqəddəs Akop kilsəsində II Kareginin tərəfdarlarını toplayıb. "Mən 15 il cəza müəssisələrində xidmət etmişəm və kilsəmiz daxildən bölünəndə yeparxiyanın ruhaniləri və Müqəddəs Patriarx bu seçimi etdilər, mən də "hə" deməkdən özümü saxlaya bilmədim. Ümidimi Rəbbə və möminlərə bağlayaraq, Masyatsotn yeparxiyasına gəlmək və intriqasız mənəvi iş görmək qərarına gəldim. Mən xidmət etməyə və səmimi dualarınızı gözləməyə gəlmişəm", - deyə Zarqaryan öz dəstəsinə müraciət edib.

Bu arada, yanvarın əvvəlində 10 yepiskop və arxiyepiskop Paşinyanın Ermənistan Apostol Kilsəsində islahatların zəruriliyi barədə bəyanatını imzalayıb və Ermənistan Apostol Kilsəsinin Bərpası üzrə Koordinasiya Şurası yaradıb. Kilsədə dəqiq nəyin dəyişəcəyi hələlik məlum deyil. Kahinlər yalnız zəruri hesab etdikləri islahatların layihəsini dərc etməyi planlaşdırırlar. Lakin onlar şübhə etmirlər ki, "de-fakto" katolikos vəzifəsindən azad edilməli, fəaliyyətdə olan katolikos təyin edilməli, kilsə nizamnaməsi qəbul edilməli və daha sonra dini təşkilatın yeni rəhbəri seçilməlidir. O vaxtdan bəri hər gün yeni keşişlər bəyanata qoşulurlar. Onların əksəriyyəti ilkin 10 imza atanın tabeliyində olsalar da, onlar koordinasiyalı şəkildə hərəkət edir və dünyəvi hakimiyyətin dəstəyinə güvənirlər. Xüsusilə, II Qaregin Saroyanı vəzifədən azad etmək qərarına gəldikdə, Koordinasiya Şurası onun hərəkətlərini qətiyyətlə pisləyərək təkcə Erməni Apostol Kilsəsinin heyətinə deyil, həm də dünyadakı dindarlara müraciət edib. Koordinasiya Şurasının bəyanatında deyilir: "Müqəddəs Taxt-tacda yaşayan şəxs illərdir ona qarşı irəli sürülən ciddi ittihamlara açıq şəkildə, vicdanla və tövbə ilə cavab verənə qədər, biz hər hansı bir qərarı, fərmanı, imzalanmış əmri, kontakionu, nəsihəti, təlimatı və ya əmri, eləcə də onun sədrliyi ilə təşkil edilən hər hansı bir şuranı, komissiyanı və ya iclası Erməni Apostol Kilsəsinin davamçıları üçün qanunsuz hesab edirik."

Eyni zamanda, onlar II Qaregini Paşinyan kimi əxlaqsızlıqda və KQB ilə əlaqələrdə deyil, milli və panxristian ziyarətgahlarına müdaxilə etməkdə, müqəddəs ənənələri təhrif etməkdə, tarixə hörmətsizlik etməkdə, kilsə kanonlarını pozmaqda və bu kimi şeylərdə ittiham edirlər. Müxalifət yepiskopları və arxiyepiskopları iddia edirlər ki, "Sizi bir daha əmin edirik ki, bu mövqe şəxsi münaqişələr və ya anın emosional gərginliyi ilə diktə olunmur, əksinə, Erməni Apostol Kilsəsinə, Ermənistan dövlətçiliyinə və dindar xalqına xidmət etmək kimi fədakar sevgimizin və borcumuzun nəticəsidir".

**V.VƏLİYEV**

# Azərbaycan regional təmiz enerji qovşağına çevrilir

Dövlətlər arasında münasibətlərin yaranması, əməkdaşlığın möhkəmlənməsi, dünya birliyinin inkişafı sahəsində məqsədlərə birgə nail olmaq əsas məsələlərdən biri olaraq diqqətdədir. Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdi-



**Əbilfəz Mahmudov, Binəqədi rayon İcra Hakimiyyəti yanında İctimai Şuranın üzvü, energetik**

yi siyasət nəticəsində ölkəmizlə dünya dövlətləri arasında münasibətlər daha da sıxlaşır, iqtisadi, siyasi münasibətlər müstəvisində uğurlar əldə olunur. Dünyanın bir çox ölkələri ilə Azərbaycan arasında əlaqələr yüksələn xətlə inkişafdadır və ölkələrarası münasibətlər etibarlı tərəfdaşlığa söykənir. Beynəlxalq aləmdə reallaşdırdığı layihələrlə körpü rolunu oynayan ölkəmiz tranzit ölkə olaraq beynəlxalq aləmdə uğurlu əməkdaşlığa imza atır.

Azərbaycan enerji ilə bağlı da müasir dövrün tələblərinə uyğun olaraq mühüm əhəmiyyət kəsb edən layihələrin müəllifi olaraq enerji təhlükəsizliyində mühüm rol oynayır. Yanvarın 8-də Bakıda, "Gülüstan" sarayında Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkəti tərəfindən inşa edilmiş 240 MVt gücündə "Xızı-Abşeron" Külək Elektrik Stansiyasının rəsmi açılışı ölkəmizin həyatında əlamətdar hadisələrdən biridir. "Xızı-Abşeron" Külək Elektrik Stansiyasının istismara verilməsi Azərbaycanın enerji potensialını daha da gücləndirəcəkdir. Bərpaolunan enerji sahəsində sözügedən bu layihə Səudiyyə Ərəbistanı Krallığı ilə Azərbaycan Respublikası arasında tərəfdaşlığın gücünü və dərinliyini nümayiş etdirir.

Ölkəmiz dinamik və qabaqcıl ölkə olaraq, iqtisadiyyat, cəmiyyətimizin müasirləşdirilməsi və transformasiyası yoluna qədəm qoyub. Azərbaycan birmənalı şəkildə müasir karbohidrogen sənayesinin beşiyidir.

Bu təşəbbüslər güclü tərəfdaşlıq və etibarlı texniki təməl əsasında Azərbaycanı regional təmiz enerji qovşağına çevirməkdə ümumi məqsədlərin ifadəsidir. "Xızı-Abşeron" Külək Elektrik Stansiyasının tikintisi üçün Abşeron rayonunda 14,2, Xızı rayonunda isə 22,6 hektar olmaqla ümumilikdə 37 hektara yaxın torpaq sahəsi bərpaolunan enerji mənbələrinin ərazisi müəyyən edilib. Layihə üzrə burada hər biri 6,5 MVt olan ümumilikdə 37, o cümlədən Abşeronda 12, Xızıda 25 turbin, həmçinin ölçü-müşahidə stansiyaları, quşların mühafizəsi sistemləri quraşdırılıb. Layihənin icrasına təxminən 340 milyon ABŞ dolları xarici investisiya yönəldilib. Stansiyanın illik enerji istehsalı həcmi təqribən 1 milyard kilovat-saat nəzərdə tutulur ki, bunun da nəticəsində 220 milyon kubmetr təbii qaza qənaət olunacaq və 400 min tondan çox karbon qazının atmosferə atılmasının qarşısı alınacaqdır. Layihənin baş podratçısı Çinin "Power China Group"un törəmə şirkəti olan "Power China Huadong Engineering Co., Ltd."dir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə çıxışı zamanı bildirdiyi kimi, " Bu stansiyanın tikintisində baş podratçı kimi iştirak edən "Power China" şirkətinin fəaliyyətini qeyd etməliyəm. Bu şirkət bu layihədə podratçı kimi iştirak edir, ancaq digər layihələrdə, o cümlədən investor kimi iştirak edəcək. Əminəm ki, bu şirkətin nəzərdə tutduğu bütün planları Azərbaycanda həyata keçəcəkdir." Bu enerji stansiyasının sayəsində 300 min evin elektrik enerjisi təmin ediləcək. Bununla da Azərbaycanın 2030-cu ilə qədər bərpaolunan enerji mənbələri sayəsində 30 faiz elektrik enerjisinin əldə olunması məqsədinə əhəmiyyətli dərəcədə töhfə veriləcəkdir.

Dövlət başçısının cıxışında bildirdiyi kimi, son 20 il ərzində ölkəmizdə yaradılmış generasiya gücləri bütün əvvəlki dövrlə müqayisədə təxminən üç dəfə artmışdır: "Bu gün bizim generasiya gücümüz təxminən 10 min meqavata bərabərdir. Bu, əgər belə demək mümkündürsə, tarixi rekorddur. Ancaq nəzərə alsaq ki, bundan sonra növbəti illər ərzində bir çox yeni bərpaolunan enerji generasiya gücü yaradılacaq, əlbəttə ki, bu rəqəm daha da artacaq və bizə imkan verəcək ki, həm artan daxili tələbatı lazımi səviyyədə təmin edək, həm də elektrik enerjisini daha böyük həcmdə ixrac edək". Dövlət başçımız onu da bildirib ki, Azərbaycanda enerji sisteminin müasirləşdirilməsi, modernləşdirilməsi, inkişafı son illər ərzində əsas prioritetlərdən biri kimi qəbul edilmişdir. Demək olar ki, son 20 il ərzində Azərbaycanın enerji sistemi, yəni generasiya gücləri, böyük dərəcəli yarımstansiyalar və ötürücü xətlər tamamilə yenilənmişdir. Vurğulamaq yerinə düşər ki, ötən il Mingəçevirdə yeni elektrik stansiyası açılmışdı. Bu ənənəvi elektrik stansiyasının generasiya gücü təxminən 2000 meqavata bərabərdir.

Bu gün Azərbaycan enerji təminatı, enerji təhlükəsizliyi nöqteyi-nəzərindən də diqqəti çəkir. Bu yaxınlarda 230 meqavat gücündə Günəş elektrik stansiyası, bu gün isə 240 meqavat gücündə külək elektrik stansiyası istismara verilib. İşğaldan azad edilmiş ərazilərdə - Cəbrayıl rayonunda hazırda üç Günəş elektrik stansiyası inşa edilir. Sözügedən üç stansiyaların ümumi potensialı 340 meqavatdır. Azərbaycanın bir sra yerlərində də bərpaolunan enerji növləri inkişaf edir. Digər böyük stansiyaların açılışı isə Biləsuvarda, Neftçalada, Naxçıvanda, işğaldan azad edilmiş ərazilərdə nəzərdə tutulur.

Son illər Azərbaycanın artan iqtisadi imkanları, yerləşdiyi əlverişli coğrafi mövqeyindən faydalanmaq bacarığı, beynəlxalq aləmə inteqrasiyası onun dünya ölkələri ilə əlaqələrinə müsbət təsir göstərib. Bildiyimiz kimi, Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində strateji tərəfdaşlıq üzrə Anlaşma Memorandumu imzalanmışdır. Bu gün Azərbaycanın Avropa İttifaqı ilə bir çox sahələrdə uğurlu əməkdaşlığı var. Azərbaycan Avropa enerji təminatının şaxələndirilməsində mühüm əhəmiyyətə malik lider ölkə kimi yüksək imicə sahibdir. Müxtəlif layihələr ilə dövlətlər arasında əməkdaşlığın və dialoqun güclənməsinə öz töhfəsini verən Azərbaycan bərpaolunan enerji potensialına malik olan ölkə kimi hədəflənən qabaqcıl yanaşmaların tətbiqinə xüsusi önəm yetirir. Dövlət başçımızın uzaqgörən siyasəti nəticəsində bu sahədə imkanlar daha da şaxələndirir.

Bütövlükdə, Azərbaycan hökuməti 2030-cu ilə qədər enerji tələbatının 30 faizini bərpa olunan mənbələr hesabına ödəməyi qarşısına məqsəd qoyub. Azərbaycan Aİ-nin enerji sahəsində strateji tərəfdaşıdır. Azərbaycan həmçinin Xəzər dənizinin qaz resurslarının Cənub Qaz Dəhlizi vasitəsilə Aİ bazarına çatdırılmasında həlledici rol oynayır. Azərbaycanın dünyada beynəlxalq və genişmiqyaslı tədbirlərin uğurlu təşkilatçısı, eləcə də nüfuzlu tərəfdaş ölkə olması ölkəmizin gücünü, nail olduğu uğurları bir daha təsdiqləyir.

# Bəhruz Quliyev: "Səs" tarixə düşmüş bir qəzetdir

## "Səs" qəzetinin ən layiqli qiymətini ulu öndər Heydər Əliyev verib

***Yanvarın 11-də Azərbaycan mətbuatının tarixində xüsusi yeri olan "Səs" qəzetinin 35 yaşı tamam oldu. Ötən 35 ildə qəzet öz fəaliyyətini necə qurub, cəmiyyətdə hansı imici qazanıb? Bu suallara "Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyevlə müsahibədə aydınlıq gətirməyə çalışdıq.***





***- Bəhruz müəllim, Azərbaycanın müstəqilliyini bərpa etməsindən 9 ay öncə fəaliyyətə başlayan "Səs" qəzetinin yaranma zərurəti və keçdiyi yol haqda fikirlərinizi bilmək maraqlı olardı...***

- "Səs" qəzeti dövlətçiliyimiz üçün çətin sınaqların başladığı bir dövrdə ərsəyə gəldi. O dövrdə respublikada ictimai-siyasi durum olduqca gərgin idi, hakimiyyət uğrunda amansız mübarizələr gedirdi, ölkəmiz Ermənistanın işğal və soyqırım təcavüzünə məruz qalmışdı, yüzminlərlə qaçqın-köçkün öz doğma torpaqlarından didərgin düşmüşdü.Ölkədə ağır sosial-iqtisadi durum hökm sürürdü. Belə bir çətin dövrdə etiraf edək ki, müstəqil qəzetin fəaliyyətə başlaması böyük cəsarət və risk tələb edirdi. Lakin qəzetin yaradıcıları bu işin altına girdilər. Fəaliyyətə başladığı ilk gündən qəzet konkret ideologiyaya əsaslandı. Sırf ideloji bir qəzet kimi fəaliyyətə başlamağın çətinlikləri isə daha çox idi.Xatırlayırsınızsa həmin dövrdə hakimiyyətdə olan qaragüruh qüvvələrin siyasi sifarişi əsasında respublikanın bir sıra mətbu orqanlarında ulu öndər Heydər Əliyevə qarşı iftira və qarayaxma kampaniyası aparılırdı.Həmin dövrdə xalqımız və dövlətçiliyimiz qarşısında öz tarixi məsuliyyətini dərk edən qəzetimizin qurucuları belə bir məsuliyyətli və dövlətçiliyimiz üçün həlledici mərhələdə Heydər Əliyev ideyalarını ictimai rəyə çatdırmaq kimi şərəfli bir missiyanı öz üzərinə götürdülər.Qəzetimiz həmin dövrdə mövcud olan hakimiyyətə qarşı müxalif mövqedə idi və haqlı olaraq bu mətbu orqanın qurucuları bütün Azərbaycan vətəndaşları kimi xalqımızın gələcək taleyini böyük tarixi şəxsiyyət Heydər Əliyevlə birgə görürdülər.

Xalqın inam və arzusunu çəkinmədən ifadə edərək Heydər Əliyev dühasına üz tutan insanlar, xüsusi ilə cəmiyyətin ziyalı təbəqəsi ağır təqib və təzyiqlərə məruz qalırdılar. Buna baxmayaraq, qəzet çox böyük fədakarlıqla Heydər Əliyev ilə bağlı xalqın arzu və istəyini dilə gətirirdi.Təsadüfi deyildi ki, 1992-ci ilin oktyabrında ölkə ziyalıları xalqın iradəsini ifadə edərək ümummilli lider Heydər Əliyevə "Səs" qəzeti vasitəsilə müraciət etdilər. Ulu öndərimiz əslində, xalqın çağırışı olan bu müraciətə biganə qalmadı, öz cavab məktubunda Azərbaycan dövlətinin xilas yolunu, müstəqilliyin qorunub-saxlanılması strategiyasını açıqladı. Bizim üçün şərəflidir ki, bu cavab da məhz "Səs" qəzetində dərc olunub.Məhz buna görə ulu öndər YAP-ın 10 illik yubileyindəki çıxışında "Səs"-i Azərbaycanın tarixinə düşmüş bir qəzet kimi xarakterizə etmiş və demişdi: ""Səs" qəzeti mənim üçün çox əziz qəzetdir. Mən bu qəzetin xidmətlərini xüsusi qiymətləndirirəm. O zaman ki, mən Naxçıvanda işləyirdim və Bakıda bəzi dairələrdə Naxçıvana qarşı ədalətsiz hərəkətlər olurdu. "Səs" qəzeti cəsarətlə çox ağıllı şəkildə məqalələr yazır, öz fikirlərini deyirdi. İctimaiyyətdə düzgün fikir formalaşmasına səy göstərirdi. Bu qəzetə qarşı təzyiqlər olurdu, lakin qəzet öz ideyaları uğrunda mübarizə aparmağı bacarırdı. "Səs" qəzetinin YAP-ın yaranmasında, cəmiyyətin maarifləndirilməsində məlumatlandırılmasında çox böyük rolu olub. "Səs" qəzeti tarixə düşmüş bir qəzetdir".

***- "Səs" qəzeti dövlətin, ölkə başçısının və YAP-ın fəaliyyətinin cəmiyyətə çatdırılmasında önəmli rolu olan bir qəzetdir. Qəzetin siyasi proseslərdə rolunu necə dəyərləndirirsiniz?***

- "Səs" qəzeti həmişə Yeni Azərbaycan Partiyasının ideoloji təbliğat vasitəsi olub və təqdirəlayiqdir ki, qəzetimiz cəmiyyətdə məhz bu cür tanınır. Qəzet fəaliyyətə başladığı 1991-ci ildən etibarən daim ulu öndərimiz Heydər Əliyevin ideyalarına və dövlətçilik xəttinə sədaqətlə xidmət edib.Ulu öndər hakimiyyətə gəldikdən sonra bütün kütləvi informasiya vasitələri kimi "Səs" qəzeti də öz fəaliyyətini normal şəkildə davam etdirib və həm ulu öndərin, həm də YAP-ın fəaliyyəti haqda cəmiyyəti məlumatlandırmaq missiyasını davam etdirib. Biz bu gün də bu siyasi kursa, dövlətçilik ideologiyasına sadiqik və daim bu amal uğrunda çalışırıq.Bundan başqa, qəzet ölkədə və dünyada baş verən hadisələri, insanların fikirlərini, əldə olunan uğurları və problemləri də öz səhifələrində işıqlandırır. Eyni zamanda, qəzetimiz dövlətimizin həyata keçirdiyi siyasətin ictimai rəyə təqdim olunması, obyektiv olaraq bu siyasətin xalqa çatdırılmasında fəal iştirak edir. Biz bu sahədə də öz məsuliyyətimizi dərk edərək hesab edirik ki, bu gün Müzəffər Sərkərdə, Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət Azərbaycanın regionda mövqelərini daha da möhkəmləndirmiş, respublikamız regionda lider ölkəyə çevrilmişdir. Kütləvi informasiya vasitəsi olaraq bu siyasəti dəstəkləməyi bizdən xalqın Prezidentə olan inam və etibarı tələb edir.

***- İndiki dövrdə "Səs" qəzeti öz fəaliyyət prinsiplərini hansı istiqamətlərdə həyata keçirir?***

- Biz dövlətçilik və Heydər Əliyevin ideyaları qarşısında daim öz məsuliyyətimizi dərk edirik. Xalqın sosial sifarişini düzgün olaraq qiymətləndirməyə çalışırıq. Bilirik ki, Azərbaycan xalqı həmişə ulu öndərimiz Heydər Əliyevin yanında olmuş və bu gün də onun ideyalarını uğurla həyata keçirən möhtərəm Prezidentimiz cənab İlham Əliyevlə birlikdədir.Ümumiyyətlə, "Səs" qəzetinin Azərbaycan mətbuatında özünəməxsus yeri var və bu qəzet ölkədə vətəndaş cəmiyyətinin qurulmasına, dövlətçiliyin qorunmasına, milli maraqlarımızın müdafiə edilməsinə öz töhfəsini verib. Biz təkcə YAP-ın və onun liderinin deyil, cəmiyyətin bütün qüvvələrinin sözünü öz qəzetimizdə veririk."Səs" qəzeti həmişə dövlətçiliyin, ulu öndərin yaratdığı Azərbaycançılıq ideologiyasının təbliği istiqamətində fəaliyyət göstərib. Gənc nəslin dövlətçilik ruhunda tərbiyəsi və maarifləndirilməsi üçün müxtəlif layihələr həyata keçirmişik.Müxtəlif ictimai-siyasi mövzularda ölkənin müxtəlif şəhərlərində dəyirmi masalar təşkil olunub, tanınmış ictimai xadimlərinin, deputatların, məmurların, ziyalıların fikirləri cəmiyyətə çatdırılıb.Bölgələrdə gedən quruculuq işləri və dövlət proqramlarının icrası ilə bağlı tədbirlər təşkil etmişik və görülən işləri ölkə ictimaiyyətinə çatdırmışıq.Dövrün tələblərinə uyğun olaraq, "Səs" qəzeti də daim yenilənir, müasir texnologiyalara yiyələnir. Ölkə media məkanında ilk dəfə olaraq biz qəzet səhifəsində küar kod sistemi ilə xəbərləri, reportajları, müsahibələri videoformatda izləmək texnologiyası tətbiq etmişik. Bu da oxucular tərəfindən maraqla qarşılanıb.Əlamətdar tarixlərdə multimedia diskləri hazırlayıb yaymışıq, xüsusi nömrələr çap etmişik. O cümlədən ulu öndər Heydər Əliyevin, cənab Prezident İlham Əliyevin və Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın fəaliyyətinə həsr olunmuş multimedia diskləri hazırlamışıq.Qəzetin bazası əsasında yaradılmış "Səs" İnformasiya Agentliyi fəaliyyət göstərir və qısa zamanda bu agentlik öz maraqlı, obyektiv informasiyaları ilə təkcə ölkə oxucularının deyil, həm də xarici ölkələrdə yaşayan azərbaycanlıların mütamadi izlədikləri bir internet resursa çevrilib.Media Qrupumuza daxil olan "Səs" televiziyası da indiki informasiya və texnologiya dövründə media məkanımızda özünə layiqli yer tutub. Televiziyanın verilişlərini ölkə daxilindən və xarici ölkələrdən xeyli tamaşaçı izləyir. Səs TV gün ərzində bir neçə dəfə canlı yayımla verilən verilişlər, maarifləndirici proqramlar, xəbər süjetləri ilə tamaşaçılarının marağını çəkir.Yeni çağırışlara uyğun olaraq media qrupumuz sosial şəbəkələrin hamısında fəal şəkildə xəbər yayır, çoxmilyonluq auditoriyalara çıxır. Həm ölkə daxilindən, həm də xaricdən ümumilikdə milyonlarla izləyici xəbərləri bizim sosial şəbəkə kanallarından və səhifələrindən əldə edir.Məlum olduğu kimi, "Səs" qəzetinin adı elə "səs" sözünü özündə ehtiva edir və bu baxımdan bizim radiomuzun da olması lazımdır.

Yaxın gələcəkdə "Səs" radiosunun yaradılmasına nail olacağımıza inanırıq."Səs" həm də bir məktəbdir, burada indiyədək yüzlərlə gənc jurnalist yetişdirilib və onların bir çoxu ölkəmizin müxtəlif media orqanlarında, həmçinin xarici media resurslarında işləyirlər.Ümumilikdə Səs Media Qrupunda 40 nəfərədək əməkdaş çalışır. Ölkənin bütün regionlarında və bəzi xarici ölkələrdə müxbir postlarımız var. Biz ən yeni müasir texnologiyaların tətbiqi, peşəkar iş mühitinin formalaşdırılması ilə ölkəmizin media məkanında özümüzün layiqli yerimizi tutmuşuq. "Səs" Media Qrupu həm ideoloji mərkəz kimi, həm də informasiya mərkəzi kimi böyük tarixə malik bir sistem olaraq fəaliyyətini davam etdirir.

***- Azərbaycanda dövlət-media münasibətlərini necə qiymətləndirmək olar?***



- Ulu öndər dəfələrlə dövlət məmurlarına mətbuata, qəzetlərə güzəştlər etməyin vacib olduğunu bildirib, başqa sahələrdə çalışanlarla yanaşı, jurnalistlərin fəaliyyətini də stimullaşdırmaq məqsədilə dəfələrlə müxtəlif tapşırıq və tövsiyələr verib. Azad sözün inkişafı naminə müxtəlif sərəncamlar imzalayıb və mətbuatın inkişafı üçün münbit şərait yaradıb.Bunun nəticəsidir ki, neçə-neçə yaşlı jurnalist Prezident təqaüdünə təqdim olunub, qəzetlərin nəşriyyata olan borcları dondurulub, həmkarlarımız təltif olunublar. Ulu öndər Heydər Əliyev mətbuata tolerant yanaşan, azad fikirli, demokrat bir insan idi. Onun siyasi kursu bu gün cənab Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirilir.Cənab Prezident ulu öndərin yolunu davam etdirərək, mətbuatın inkişafı naminə qəzetlərin "Azərbaycan" nəşriyyatına olan borcunu birdəfəlik ləğv edib və layiqli jurnalistlərə mükafatlar verib. Prezident İlham Əliyev daim mətbuatın inkişafı üçün lazımi addımlar atır, tapşırıqlar və sərəncamlar verir.Milli mətbuatımızın ildönümləri ilə bağlı cənab Prezidentin sərəncamı ilə mətbuatımızın inkişafında xidmətləri olan bir qrup jurnalistə fəxri adlar və sair mükafatlar verilməsi media mənsublarının əməyinə verilən layiqli qiymətdir.Bundan başqa, Prezidentin Ehtiyat Fondundan ayrılan vəsaitlə jurnalistlər üçün 2 böyük yaşayış binası tikilib və yüzlərlə jurnalist ailəsi mənzillə təmin olunub. Jurnalistlərin sosial müdafiəsi ilə bağlı da xeyli işlər görülüb. Milli Mətbuatımızın 150 illik yubileyi münasibətilə yüzlərlə jurnalist ölkə başçısı tərəfindən mükafatlandırılıb.İnkişaf olan yerdə, sözsüz ki, problemlər də var. Lakin, bu gün milli mətbuatımız inkişaf etmiş ölkələrdən, demokratik ənənələri yüz illərlə ölçülən ölkələrin mediasından heç də geri qalmır.

- Maraqlı müsahibəyə görə sağ olun.

***Müsahibəni aldı: Elçin Bayramlı***

# Molla rejiminin hakimiyyətdə qalma layihəsi başa çatır

Bugün dünyanın müxtəlif bölgələrində baş verən qarşıdurmalar fonunda əsas diqqətlər fars-molla rejiminin nəzarət etdiyi ərazilərdə baş verən amansız iğtişaşlar, xaos və anarxiyadır. Rejim bütün işgəncə vasitələrini işə salmaqla insanların azadlıq mübarizəsini əngəlləməyə, mübarizə ruhunu sıradan çıxartmağa çalışır. Əldə olunan məlumatlara və dünyanın bir sıra insan haqları təşkilatlarının yaydıqları hesabatlara görə, dekabrın 28-dən başlayan etiraz aksiyalarından bu günə qədər 800-ə qədər insan öldürülüb, 4 minə yaxın insan isə yaralanıb, minlərlə insan isə evlərindən, küçələrdən oğurlanaraq zindana atılıblar. Fransanın AFP xəbər agentliyi tərəfindən Tehrandan çəkilmiş videoda şəhərin şimal-şərqindəki Heravi rayonunda maşınların yandırıldığı və etirazçıların rejim əleyhinə şüarlar səsləndirdiyi görünür. Məşhəddəki Vekil Abad bulvarında çəkilmiş başqa bir videoda etirazçılarla təhlükəsizlik qüvvələri arasında toqquşmalar göstərilir.Yalnız dünən baş verən qanlı olay barədə məlumat verən Norveçdə yerləşən İnsan Hüquqları təşkilatı ölənlərin sayının 192 olduğunu bildirib. Nyu-Yorkda yerləşən İnsan Hüquqları Mərkəzi (CHRI) internetin bağlanmasından sonra şahid ifadələrinə və alınan sahə hesabatlarına əsasən yüzlərlə etirazçının öldürüldüyünü açıqlayıb. Şahidlər xəstəxanaların dolub- daşdığını, qan ehtiyatlarının kritik səviyyədə olduğunu, cəsədlərin yığıldığını və ölənlərin sayının bir neçə saat ərzində artdığını bildiriblər. Təhlükəsizlik qüvvələrinin snayperlərdən, hərbi tüfənglərdən və müşahidə dronlarından istifadə etdiyi və etirazçıların qəsdən gözlərinə atəş açıldığı bildirilib.





Aldığımız məlumata görə, fars-molla rejiminin nəzarət etdiyi ərazilərdə etirazların geniş xarakter alması səbəbindən həyat demək olar ki, dayanıb. Əksər bazarlar fəaliyyətlərini dayandırıb, mağazalar isə bağlanıb. Ərazilərdə internet bağlanıb. Bəzi ərazilərdə telefon xidməti də məhdudlaşdırılıb. Bunun rejimin etirazçılara qarşı apardığı repressiyaların bir hissəsidir. Əksər media qurumlarının veb saytları da fəaliyyətlərini dayandırıblar. Yanvarın 12-də ABŞ prezidenti Donald Tramp jurnalistlərə bildirib ki, Vaşinqton iranlıların internetə çıxışını bərpa etmək üçün addımlar ata bilər, o cümlədən Starlink mobil terminallarından istifadə etməklə yaranan problem aradan qaldıra bilər. ABŞ prezidenti Donald Tramp, ölkənin qırmızı xətləri keçməyə başladığını bildirib. ABŞ ordusunun vəziyyəti yaxından izlədiyini və saatlıq hesabatlar aldığını bildirən Tramp, "Sərəncamında son dərəcə güclü seçimlər var" deyib. Tramp İranın bir gün əvvəl ABŞ ilə əlaqə saxladığını və nüvə sazişi üzrə danışıqlar aparmağı təklif etdiyini bildirib: "Biz onlarla danışa bilərik. Görüş təşkil olunur. Lakin baş verənlərə (ölkədəki nümayişlərə) görə, danışmazdan əvvəl hərəkətə keçməli ola bilərik." Tramp molla rejimi tərəfindən bəzi etirazçıların öldürüldüyünü bildirib: "Biz bu məsələyə son dərəcə ciddi yanaşırıq. Hərbçilər də vəziyyəti araşdırır və bəzi çox güclü variantları nəzərdən keçiririk. Son qərarı verəcəyik".

### "Uzun kabusunuz tezliklə bitəcək"

ABŞ senatoru Lindsi Qraham da sosial mediada fars-molla rejiminin ərazilərində yaşayan xalqlara müraciət edərək Tehran rejimini təhdid edib. Təxminən 2 milyon baxış sayı toplayan paylaşımda Qrem yazıb: "İran xalqına: Uzun kabusunuz tezliklə bitəcək. Zülmə son qoymaq üçün cəsarətiniz və qətiyyətiniz prezident Tramp və bütün azadlıqsevər insanlar tərəfindən hiss edilib. Prezident Tramp "İranı yenidən böyük edin" dedikdə, İrandakı etirazçıların molla üzərində qələbə qazanması deməkdir. İranda qurban verənlərin hamısına: Allah sizi qorusun, kömək yoldadır". Diqqətçəkən məqam ondan ibarətdir ki, molla rejimi qəddarlığına son qoymaqdansa hadisələrin baş verməsinə görə xarici dairələri, xüsusilə də ABŞ-ı və İsraili günahlandırır. Molla rejimin parlamentinin spikeri Məhəmməd Bagir Qalibaf hədələyici tonla bildirib ki, hər hansı xarici hücum Tehranın İsrail və ABŞ-nin regional bazalarını qanuni hədəf kimi nəzərdən keçirməsinə səbəb olacaq. Baş molla Ayətullah Xamenei etirazçılarla danışıqlara gedib, üzr istəməkdənsə hədə mesajı ilə çıxış edib. Hətta utanıb çəkinmədən haqları uğrunda mübarizəyə qalxan insanları təhqir etməkdən çəkinməyib. Bildirib ki, küçələrə çıxıb, etiraz edənlər vandallardır. Bununla baş molla insanlıqdan və bəşəri dəyərlərdən uzaq məxluq olduğunu nümayiş etdirir. Tramp baş verənlərə sərt xəbərdarlıqla cavab verib: "Əgər onlar bunu etsələr, əvvəllər heç görmədikləri səviyyədə cavab verəcəyik. Onlara inanmaq çətin olacaq. Mənim ixtiyarımda son dərəcə güclü variantlar var. Buna görə də belə bir addım atılarsa, çox, çox güclü cavabla qarşılaşacaqlar".

Baş mollanın və rejimin digər rəhbər şəxslərinin məsuliyyətsiz açıqlamalarla çıxış etmələri onları son dərəcə qorxu içində olduqlarını göstərir. Az sonra onların bir -bir ərazilərdən qaçmağa çalışacaqları şübhəsizdir. Daha doğrusu, artıq baş mollanın 20-yə yaxın yaxın ətrafı ilə Moskvaya qaçmağa hazırlaşdığı bildirilir. Ancaq əminliklə demək olar ki, onların rahatlıqla ərazilərdən qaçmalarına imkan verilməyəcək və artıq formalaşmaqda olan Güney Azərbaycan Milli Hökuməti onların həbs edilərək, məhkəmə qarşısına çıxarılmasını təmin ediləcək.

### Təbrizdə xalq küçələrə çıxdı: "Diktatora ölüm olsun!"

Fars-molla rejiminin nəzarət etdiyi ərazilərdə güneyli soydaşlarımız son sözü demək, cürük molla rejimini tamamilə məhv etmək üçün ayağa qalxıb. Dünəndən genişlənən aksiyalar bütün Güney Azərbaycanı əhatə edib. Təbriz şəhərində etiraz aksiyasına toplaşan sakinlər mövcud siyasi vəziyyətə etiraz ediblər.Aksiya zamanı qəzəbli etirazçılar "Azərbaycan şərəfdi, Xamenei bişərəfdir!" və "Diktatora ölüm olsun!" kimi şüarlar səsləndiriblər. Aksiyaların Güney Azərbaycanda daha effektli və məqsədyönlü keçirildiyini anlayan rejim Güney Azərbaycanın Təbriz, Ərdəbil və Zəncan şəhərlərinə əlavə təhlükəsizlik və hərbi qüvvələr yeriib.Günüy Azərbaycandakı Siyasi Məhbusların Müdafiəsi Assosiasiyasının yaydığı məlumatda bildirilir ki, rejimin təhlükəsizlik və hərbi qüvvələrinin müşahidə edildiyi bu şəhərlərdə kəşfiyyat idarəsinin bölgədəki bölmələri siyasi və ictimai fəallara telefonla zəng edərək onları etiraz aksiyalarına qoşulmamağa çağırırlar. Təhlükəsizlik orqanlarının nümayəndələri Güney Azərbaycanın ictimai-siyasi və mədəni fəallarını təhdid edərək onların etiraz aksiyalarında iştirakını əngəlləməyə çalışırlar. Lakin güneylilər bütün çağırışları və hədələri qətiyyətlə rədd edirlər. Onlar Güney Azərbaycan dövlətinin qurulmasında israrlı olduqlarını nümayiş etdirirlər. Buna görə də, rejim azərbaycanlılara qarşı daha amansız davranır. Dünən Güney Azərbaycanlıların fəallarından olan Yürüş Mehralıbəyli, Asif Camal, Yunus Şeybay, Macid Qulizadə və digərləri evlərindən oğurlanaraq zindanlara atılıblar. Rejim çökdükcə daha qəddar və vəhşi olur. Ancaq hər cür vəhşiliklərə, qəddarlıqlara baxmayaraq rejim milli varlıqları uğrunda mübarizəyə qalxan güneyli soydaşlarımızı öz yollarından döndərə bilməyəcək. Əksinə, insanlar daha əzm və fədakarlıqla hədəflərinə doğru irəliləyəcəklər. Artıq fars-molla rejiminin hakimiyyətdə qalma layihəsi başa çatır. Yeni, azad, demokratik dövr başlayır. Təbriz azadlığına qovuşmaq ərəfəsindədir. Güney Azərbaycan dövlət müstəqilliyini qurmaqla dünyanın bir parçası olmağa hazırlaşır. Bu yolda hər bir azərbaycanlıya, etiraza qalxan güneyli soydaşlarımıza uğurlar arzulayırıq.

***İLHAM ƏLİYEV***



MƏTANƏT

# 150 yaşlı milli mətbuatın 35 illik "Səs"i

35 il öncə, ölkənin ictimai-siyasi həyatının mürəkkəb dövründə mətbu salnaməmizə yeni bir qəzet daxil oldu- "Səs" qəzeti. Yarandığı gündən səhifələrində dərc olunan gündəmin nəbzini tutan maraqlı yazılarla, operativ xəbərlərlə birincilər sırasında olan "Səs" müstəqilliyimizin bərpasının ilk illərində doğru sözlü və dövrün güzgüsü olduğu üçün saysız təqiblərə də məruz qalmışdır. Yeni Azərbaycan Partiyasının 34 illik tarixinin arxivi hesab olunan "Səs" qəzeti həmin dövrdə Naxçıvan Muxtar Respublikasında yaşayan və fəaliyyət göstərən Ümummilli Liderimiz Heydər Əliyevin bütün çıxış və məruzələrini nəşr edən ilk mətbu orqandır. Elə bu səbəbdən də qəzet və qəzet əməkdaşları Ulu Öndərimizin Bakıya gəlməsinin qəti şəkildə qarşısını almaq istəyənlərin, bunun üçün min bir əngəl yaradanların, hakimiyyət davası aparan, xalqın iradəsinin əksinə olaraq hakimiyyətə gələnlərin və bu mövqeyə layiq olmadıqlarını qısa zaman kəsiyində ortaya qoyan qüvvələrin təzyiqinə məruz qalmışdır.

Dəfələrlə həmin qüvvələrin nümayəndələri redaksiyaya basqınlar etmiş, əməkdaşlara xəsarət yetirmiş, onları ölümlə hədələmiş, doğru yoldan sapdırmağa çalışmışlar. Lakin "Səs" adından da göründüyü kimi, dövrün haqq səsi, ədalət carçısı olmuş, bu qədər təqib və təzyiqlərə baxmayaraq tutduğu yoldan çəkinməmiş, ölkədəki özbaşınalıq şəraitində mövqeyini qoruyub saxlaya bilmişdir.

Bütün bunlar isə "Səs" ətrafında toplaşan jurnalistlərin ölkənin ictimai-siyasi həyatındakı axsamaları aydın şəkildə görə bilmələri, həmin dövrdə siyasi meydanda olan qüvvələrin xalqı uçuruma apardıqlarını, onların millət üçün heç bir faydası olmadığını açıq şəkildə görə bilmələri, ölkə üçün hansı addımların düzgün olduğunu dərindən dərk etmələri nəticəsində olmuşdur.

35 ilin hər anında sözünü deyə bilən, ölkədə baş verən hadisələrə obyektiv münasibət göstərən, geniş təhlili yazılarla, araşdırmalarla gündəm olan "Səs" qəzeti redaksiyası həm də ötən illərin bir mətbu məktəbi olmuşdur. Burada çalışan onlarla əməkdaş zaman-zaman müxtəlif sahələrdə yüksək vəzifələrə irəli çəkilmiş, onların hər biri göstərilən etimadı doğrultmuşlar. Çünki necə deyərlər, onlar "Səs"in tərbiyəsini almış, bu gözəl kollektivin əhatəsində ərsəyə gəlmişlər.

Mən kollektivə yeni gələnlərdən olsam da, həm yaşım, həm də təcrübəm imkan verdi ki, buradakı kollektiv və sevimli qəzetimiz haqqında söz deyə bilim. Bəli, ölkə mediasının öncüllərindən olan "Səs" haqqında bir jurnalist olaraq eşitmişdim, lakin redaksiyada çalışandan sonra həqiqətən kollektivin əzmini, hər gün 16 səhifəlik qəzeti necə böyük zəhmətlə, sevgi ilə ərsəyə gətirdiklərini gördükdən sonra "Səs" haqqında deyilənlərin nə qədər yerində olduğunu öz-özlüyümdə bir daha təsdiqlədim.

35 il... 150 yaşlı milli mətbuatımızın 35 yaşlı xələfi. Bu, heç də az zaman deyil. Bir qərinədən artıq dövrdür. Xalqa, dövlətə, dövlətçiliyə 35 illik xidməti olan qəzet bu gün onun haqqında deyilən bütün yüksək fikirləri haqq edir. Çünki onun səsi düz bir qərinənin o başından gəlir. Bu səs ölkə tarixinin səsidir. İctimai-siyasi həyatımızın səsidir. Arxivində nüsxələnən 35 illik salnamənin səsidir.

Təsadüfi deyil ki, Ümummilli Liderimiz Heydər Əliyev də "Səs" qəzeti haqqında dəyərli fikirlər döyləmişdir: "Səs" qəzeti mənim üçün çox əziz qəzetdir. 1991-ci ilin fevral ayında, Azərbaycanda kommunist hakimiyyəti dövründə mən Ali Sovetdə çıxış edəndən sonra mənim çıxışım,- xatirinizdədir, o vaxt mənim çıxışımı hörmətdən salmağa çalışdılar, onu dərc etmək də istəmirdilər, amma mənə lazım idi ki, o, dərc olunsun,- "Səs" qəzetində dərc edildi. Mən Naxçıvanda işləyərkən bizim bir neçə tədbirlərimiz barədə yazıları "Səs" qəzetində dərc edə bildik. Nəhayət, "Səs" qəzeti "91-lər"in müraciətini dərc edib, mənim cavabımı dərc edibdir. Ona görə də "Səs" qəzeti bizim partiyanın tarixində ən mötəbər yer qazanmış bir qəzetdir. Görürəm ki, son vaxtlar özünün xüsusiyyətlərini itirmədən modernləşir, yaxşılaşır. Arzu edirəm ki, daha da modernləşsin və yaxşılaşsın.

Bəli, Ümummilli Liderimizin bu kəlamları "Səs"in pasportudur. Bu mətbu orqanın daim gələn və gələcək səsidir. Bu kəlamlar bu qəzetin qiyməti, dəyəri, ölkəmizin müstəqilliyi, suverenliyi yolunda mübarizəsi, əqidəsidir. Ulu Öndərimizin qəzetimiz haqqında dəyərli fikirləri kollektivimizin qürurudur. Bu qürurla da "Səs" hər zaman dövlətimizin, dövlətçiliyimizin yanındadır. Çünki ötən bir qərinədə bu mətbu orqan nəyin doğru, nəyin yalan olduğunu görə-görə gəlmişdir. Bu səbəbdən də o, həmişə doğru olanların, xalqını, millətini düşünənlərin yanındadır. Bu siyasəti bəyənənlərin sırasındadır. Bu doğru yolda bu günlər 35 yaşı tamam olan qəzetimizə və dəyərli kollektivimizə uğurlar arzulayıram.

# Okeanların istilik rekordu: 9 il ardıcıl...



Qlobal okean istilik nisbəti 2025-də ardıcıl doqquzuncu dəfə rekord qırdı-bu, iqlim böhranının əsas göstəricilərindən biridir. Ötən ilin hesabatlarına görə Yer kürəsinin okeanları saniyədə Xirosima ölçüsündə 12 atom bombasına bərabər enerji udurdu. "Advances" jurnalında cümə günü dərc olunan hesabata görə, qlobal okean istilik miqdarı (OHM) 2025-ci il də daxil ardıcıl doqquzuncu ildir ki, artıb. 31 beynəlxalq qurumdan 50-dən çox alimin iştirak etdiyi əməkdaşlıq çərçivəsində aparılan tədqiqat, planetin sularının temperatur dəyişkənliyini ölçərək Cənubi Atlantika, Şimali Sakit Okean və Cənubi Okeanda normadan qat-qat çox artım aşkar edib. İstiliyin getdikcə artmaslı ekstremal hava şəraiti, mərcan riflərinin məhv olması və dəniz səviyyəsinin qalxması ilə əlaqələndirilir.

Yer kürəsinin okeanları planetin əsas istilik enerjisi mənbəyidir. İstixana qazlarının yaratdığı normadan artıq istiliyin 90 faizindən çoxunu udan okeanların temperaturunun getdikcə yüksəlməsi uzunmüddətli iqlim dəyişikliyinin kritik göstəricisi hesab edilir. Milli Atmosfer Tədqiqatları Mərkəzinin həmmüəllifi və alimi Kevin Trenbert bildirib ki, Qlobal OHM planetin istiləşdiyini göstərən ən yaxşı göstəricidir.

Pensilvaniya Universitetinin Elm, Davamlılıq və Media Mərkəzinin direktoru Maykl Mann bildirib ki, okean istiliyinin miqdarının ölçülməsi, qlobal istiləşməni bütövlükdə ölçməyin ən yaxşı yoludur. Keçən il okean enerjisinin ümumi artımı 23 Zetta Coul təşkil edib ki, bu da bütün planetin elektrik enerjisi istifadəsindən 200 dəfədən çoxdur.



Okeanların səthinin 500 metrliyində istiləşməsi 1970-ci illərin sonlarında müşahidə olunsa da, süni istilik indi səthin 2000 metr dərinliyinə qədər nüfuz edir. Trenbertin sözlərinə görə, istiliyin bu cür dərinliklərə çatması təxminən 25 il çəkir və bu da əsrlər boyu davam edəcək istiləşmə effekti yaradır. Dəniz səthinin orta temperaturu 2023 və 2024-cü illərdən daha aşağı olsa da, bu, tarixdə üçüncü ən isti il olaraq qalıb.

Minnesota ştatındakı Müqəddəs Tomas Universitetinin istilik elmləri professoru Con Abraham bildirib ki, istiləşən okean daha isti və rütubətli havaya səbəb olur və bu da öz növbəsində daha güclü fırtınalara səbəb olur. Okean temperaturu artdıqca buxarlanma da artır və atmosferdə daha çox rütubətə səbəb olur.

Cənubi və Cənub-Şərqi Asiyada 1350-dən çox insanın ölümünə səbəb olan güclü musson yağışları, Texasın Qvadelupe çayı boyunca 138 ölümə səbəb olan fəlakətli daşqınlar və Kanadada beş milyon hektardan çox ərazini yandıran 1200-dən çox meşə yangını uzunmüddətli okean istiliyinin toplanması ilə əlaqələndirilə bilər. Bununla yanaşı, dəniz istilik dalğalarının artan tezliyi və intensivliyi həm Qrenlandiya, həm də Antarktika buz təbəqələri üçün rekord dərəcədə aşağı kütlə səviyyəsinə səbəb olub və bu da öz növbəsində qlobal dəniz səviyyəsinin qalxmasına səbəb olub.

Tədqiqatçılar okeanların istiləşməsinin mərcan rifləri üçün də ciddi təhlükə yaratdığı barədə xəbərdarlıq edirlər. Çin Elmlər Akademiyasının okeanoqrafiya tədqiqatının həmmüəllifi Licinq Çenq bildirib ki, dəniz ekologiyası üçün vacib olan riflər dəniz dibinin 0,1 faizindən az hissəsini əhatə etməsinə baxmayaraq, bütün məlum dəniz növlərinin 25 faizindən çoxu deməkdir. Karbon qazının tamamilə azalması vəziyyəti 1970-ci ildən əvvəlki okean temperaturuna gətirib çıxarmasa da, tədqiqatçılar gedişatı dəyişdirməyin mümkün olduğunu deyir.





Emissiyaların dayandırılması halında okean səthinin istiləşmə sürətinin azalacağı ehtimal edilir.

Proqnoz dəyişməz olaraq qalır: qlobal okean istiliyinin sıfır istixana qazı tullantılarına çatana qədər ildən-ilə artacağı gözlənilir. Yer kürəsinin okeanlarında saxlanılan istilik enerjisinin miqdarı səbəbindən ekosistemdə mənfi istiqamətdə dəyişiklik qaçılmazdır. Alimlər mövcud davamlılıq modellərinin yenidən nəzərdən keçirilməsinin lazım olduğunu bildirirlər. Bu arada isə ABŞ prezidenti Donald Trump 66 beynəlxalq təşkilat və müqavilədən, o cümlədən UNFCCC və IPCC-dən çıxacağını elan edib. Bu, qlobal iqlim əməkdaşlığını ciddi şəkildə zəiflədə bilər.

**Lalə Mehralı**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "ekologiya və ətraf mühitin mühafizəsi" istiqaməti çərçivəsində hazırlanıb*

# Avropalaşmaq meylimizin bəhrəsi...



***Avropaya doğru çıxdığımız yolçuluqda arxada qoyub üzərindən irəliyə addımladığımız məsələlərdən biri də dünyaya gələn uşaqların hər il sayının azalmasıdır. Bu say o qədər azalıb ki, indi üçuşaqlı ailələr barmaqla göstəriləcək qədər qalıb. Müasir ailələrimizdə iki uşaq, son vaxtlar isə bir uşaqla kifayətlənmək bizim hələ bir neçə illər öncəki avropalaşmaq meylimizin bəhrəsidir. Hansı ki, artıq budur, meyvəsini dəririk.***

Tanıdığım yaşlı bir qadın var, mama-tibb bacısıdır. O deyir ki, ailədə iki uşaqla kifayətlənmək tamamilə səhv fikirdir. Həmin ailə fikirləşməsin ki, biz dünyaya insan bəxş etdik. İki uşaqdan biri ata, biri anadır. Əgər ailədə üçüncü uşaq varsa, bu, artım sayıla bilər.

Nə qədər doğru söylənmiş fikirdir. Dəfələrlə təsadüf etmişik ki, ailələrdə iki övladdan biri ya xəstəlikdən, ya da hansısa qəza nəticəsində dünyasını dəyişir, o biri uşaq tək qalır, bundan böyük travma alır. Bu, həm də uşaqların psixoloji durumuna ciddi təsir göstərir. Qardaş və ya bacısını itirən uşaq əgər ailədə üçüncü uşaq olarsa, onunla təsəlli tapar, əks təqdirdə onun vəziyyətini düşünmək heç də çətin deyil. Belə uşaqlar üçün gələcək həyat daha dözülməz olur. Çünki onlar tamamilə tək qalırlar.

İki övladından birinin oğlan olması ilə kişi artıq ailə üzvlərinin daha da artmasında maraqlı olmur. Çünki onun artıq oğlu var. Hər bir kişinin arzusunda olduğu, doğulmasını səbrsizliklə gözlədiyi oğlu. Elə ki, birinci və ya ikinci uşaq oğlan oldu, deməli, kişilər arzularına çatdılar. Onlar daha ailə artımı barədə düşünmürlər.

Məsələnin bu tərəfi üçün məhz qadınlar günahkardır. Çünki qadın həm də anadır. Övladının bu gününü və gələcəyini düşünmək kişilərdən çox qadınlara bəxş olunan hissdir. Bu səbəbdən də qadınlar iki uşaqla kifayətlənməməlidir. Lakin onlar işlərinin yüngül olması, karyera dalınca gedə bilmələri, daha çox əziyyət çəkməmələri üçün USM-lərin köməkliyi ilə ailə planlaşdırması tərtib edərək bu kimi problemlərin yaranmasına rəvac verirlər. O problemlər ki, əhali sayının da, ailədə uşaq sayının da artımına və bunun yaratdığı problemlərə ciddi şəkildə təsir göstərir. Əslində isə dünyaya uşaq gətirmək, onun qayğısına qalmaq, gözəl tərbiyə verib böyütmək valideynlərin, xüsusilə də anaların üzərinə düşən mühüm vəzifədir. Digər işlər, karyeralar isə bundan sonra düşünülməlidir.

Axı biz ailə dəyərlərimizə bu cür münasibət bəsləyə-bəsləyə onu cılızlaşdırırıq. Ailəyə iki övlad bəxş etməklə ölkəmizin əhali sayına, inkişafına zərbə vurmuş oluruq. Mənsub olduğumuz kökün, nəslin getdikcə azalmasına, yoxa çıxmasına şərait yaradırıq...

Bu məsələdə selektiv abortların da özünəməxsus rolu var. Selektiv abortlar insanlığa qarşı haqsızlıq, təhqirdir. Qadınla kişi arasında bərabərliyə zidd, ən təhlükəli vasitədir. Hansı ki, biz Gender bərabərliyindən danışırıq, lakin bu bərabərliyi pozan birinci amil selektiv abortlardır.

Selektiv abortların çoxalmasında, dünyada ölkəmizi birinci etməsində, oğlan və qız balansının pozulmasında, bunun gələcəkdə böyük problemlərə səbəb olmasında hər birimiz günahkarıq. Biz illər öncədən bu xalqa məxsus milli adət-ənənələrdən yola çıxmalıydıq. Həmin yolda insanlığa balta çalan bu yeniliyi baltalamalı, onun inkişafının, yayılmasının qarşısını almalıydıq.

Bu gün son illərin statistikasına nəzər salanda bütün illərdə doğulan uşaqlar arasında oğlanların qızlardan artıq olmasını müşahidə edirik. Bunun yaratdığı problemlər isə artıq hiss olunmaqdadır. Yaxın gələcəkdə isə bu problemin ağırlığı çiyinlərimizi yara edəcək.

Bu gün Azərbaycanın selektiv abortlara görə dünyada birinci yerdə olması artıq səhiyyə sistemində həyəcan təbili çalınmasının vaxtının ötdüyünü göstərir. Selektiv abortlar indiyədək niyə qadağan olunmayıb? Görəsən bunun qarşısını nə kəsib? Çünki kiminsə haqqı deyil dünyaya gətirəcəyi uşağın cinsini əvvəlcədən bilsin. Heç kimin də bunu bilməməklə hüququ pozulmur. Bəs belə isə bu növ abort nə üçün qadağan olunmur?

Oğlanların sayı artır, qızların sayı dəfələrlə azalır. Biz gələcəkdə ana olacaq qız tapa bilməyəcəyik. Bir əmili, xalalı uşaq görməyəcəyik. Ən dəhşətlisi isə bacısız və qardaşsız bir cəmiyyətə doğru gedirik. Bu barədə düşünmək hələ də gec deyil...

**Mətanət Məmmədova**

SON SƏHİFƏ

# SƏS

13 yanvar
2026-cı il


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

**1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544**
**2. Mətbuat Yayım MMC – 0124411991, 0124404694**
**3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969**
**4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002**
**5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343**
**6. Ziya LTD – 0124977696, 0503067744**
**7. Bakmətbuat MMC 0502644010**

**1 nüsxə 1 aylığı 8 AZN**
**6 aylıq 48 AZN**
**1 illik 96 AZN**

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


ARAŞDIRMA

# Ən çox harada yanılırıq? - xaricdən avtomobil alanların buraxdığı əsas səhvlər...




Xaricdən avtomobil almaq bir çox vətəndaşa ilkin mərhələdə daha sərfəli seçim kimi görünür. Xarici bazarlarda qiymətlərin nisbətən ucuz olması alıcıda əsas qənaətin məhz alış qiyməti ilə əldə ediləcəyi təəssüratı yaradır. Lakin praktikada avtomobilin real maya dəyəri yalnız satış qiyməti ilə məhdudlaşmır. Gömrük rüsumları, vergilər, logistika xərcləri, sertifikatlaşdırma və qeydiyyat prosedurları yekun məbləği ciddi şəkildə artırır və əksər hallarda vətəndaşlar bu əlavə xərcləri avtomobil artıq ölkəyə daxil olduqdan sonra görürlər.

Son illər isə elektrik və hibrid avtomobillərə tətbiq olunan gömrük və vergi güzəştləri bu sahəyə marağı daha da artırıb. Rəsmi açıqlamalarda bu avtomobillərin həm ekoloji, həm də iqtisadi baxımdan üstünlükləri önə çəkilsə də, real təcrübə göstərir ki, texniki uyğunluq, servis infrastrukturu və ehtiyat hissələrinin əlçatanlığı məsələləri bəzən əldə edilən ilkin qənaəti kölgədə qoyur. Bu səbəbdən xaricdən avtomobil gətirməzdən əvvəl yalnız qiymət fərqinə deyil, bütün xərclər zəncirinə və uzunmüddətli istismar risklərinə kompleks yanaşmaq vacibdir. SİA mövzu ilə bağlı araşdırma edib.

Avtomobili xaricdən alarkən yalnız ilkin satış qiyməti kifayət etmir - bir sıra əlavə xərclər də var:

### Avtomobilin alış qiyməti

-Xaricdə satınalma qiyməti (satan ölkədə ödənən)

-Lazım gələrsə, oradakı əlavə xidmətlər (köçürmə haqları, broker xərcləri).

### Logistika və daşınma xərcləri

-Yükdəyişmə və nəqliyyat xərci: idxalçı tərəfindən ödənən daşınma haqqı.

-Sığorta və təhlükəsizlik xərcləri: tranzit zamanı sığorta haqqı.

Gömrük dəyərinə bu xərclər də daxil edilir və rüsumlar hesablanan zaman bu ümumi məbləğ əsasında götürülür.

### Gömrük rüsumu

Avtomobilin gömrük dəyərinin müəyyən faizi kimi hesablanır. Məsələn, elektrik avtomobillərində gömrük dəyərinin 15 %-i qədər rüsum tutulur.

### Əlavə vergilər və haqlar

Buna aşağıdakılar daxildir:
-ƏDV (Əlavə dəyər vergisi) (bəzi hallarda güzəştli və ya azad edilmiş ola bilər).
-Gömrük yığımları, vəsiqə haqqı, elektron xidmət haqları və onların ƏDV-si.

### Sertifikatlaşdırma / texniki uyğunluq

-Avtomobilin ölkənin ekoloji və təhlükəsizlik standartlarına uyğunluğunun sübutu.
-Uyğunluq sertifikatının alınması üçün işləməyən əlavə prosedurlar və xərclər.
Nəqliyyat və qeydiyyat xərcləri
-Avtomobil qeydiyyatına alınması (DYP) üçün ödənişlər.
-Nömrə nişanı, mühərrik uyğunluğu kimi sənədləşmə xərcləri.

### Vətəndaşlar ən çox harada yanılır?

*Yalnız Satış Qiymətini Hesablamaq*
Bir çox alıcı xaricdə çox aşağı qiymət görüb hesablayır ki, bu avtomobil Azərbaycanda da o qədər sərfəlidir. Amma logistika, gömrük rüsumu və digər haqlar göz ardı edilir.

### Güzəştlərin bitməsini Gözardı etmək

Elektrik və hibrid avtomobillərə tətbiq olunan vergidən azad etmə və gömrük güzəştlərinin müddəti bitə bilər - bu da son anda hesablamaları dəyişdirir.

### Uyğunluq və sertifikatlaşdırma xərcləri

Bəzən avtomobilin ölkənin ekoloji standartlarına uyğun olması üçün əlavə sənədlər tələb olunur və bunlar əlavə məbləğlə nəticələnir.

### Elektrik və hibrid avtomobillər: güzəştlər real qənaət verir?

Elektrik və hibrid avtomobillərin idxalı üçün güzəştlər əslində qısa müddətdə qənaət imkanı yaradır, amma müəyyən məqamlar var:

### Güzəştlərin təbiəti

-Elektrik avtomobilləri üçün gömrük rüsumu yalnız 15 % tutulur və bəzi hallarda digər vergilərdən azad olunur.
-Keçmişdə hibrid və elektrik avtomobillərinə gömrük rüsumu və ƏDV güzəştləri tətbiq olunurdu, bu da alıcı üçün ümumi xərcləri aşağı salırdı.

### Güzəştlərin bitməsi riski

2026-cı ilin əvvəlinə bu güzəştlərin bir hissəsi bitə bilər və ƏDV ilə yanaşı gömrük rüsumunda dəyişiklik ola bilər.

### Servis və texniki uyğunluq məsələləri

Elektrik və hibrid avtomobillərin uzun müddətli qənaəti:
-Enerji istehlakı baxımından qənaət - benzin/xarici yanacağa nisbətən daha ucuz olur.
-Servis mərkəzlərinin mövcudluğu - bəzi modellər üçün Azərbaycanda hələ geniş servis infrastrukturu olmaya bilər, bu isə uzunmüddətli xərcləri artırır.
-Əvəz hissələrin qiyməti - elektrik/hibrid modellərdə xüsusi komponentlər daha bahalı olur.

Bu o deməkdir ki, ilkin bazarda daha sərfəli görünən elektrik avtomobili sonradan servis və uyğunluq problemlərinə görə əlavə xərcə çevrilə bilər. Qısa müddətdə elektrik/hibrid avtomobil alışı finans baxımdan sərfəli ola bilər, amma güzəştlərin müddətinə, qeyri-adi xərclərə və texniki uyğunluğa diqqət yetirmək lazımdır.

Digər tərəfdən, elektrik və hibrid avtomobillərin idxalına tətbiq olunan gömrük və vergi güzəştləri bu sahəyə marağı daha da artırıb. Rəsmi açıqlamalarda bu avtomobillərin həm ekoloji, həm də iqtisadi baxımdan üstün olduğu vurğulansa da, real təcrübə göstərir ki, texniki uyğunluq, servis infrastrukturu və ehtiyat hissələri ilə bağlı problemlər bəzən əldə edilən ilkin qənaəti kölgədə qoyur. Məhz bu səbəbdən xaricdən avtomobil gətirməzdən əvvəl yalnız qiymət fərqinə deyil, bütün xərclər zəncirinə və uzunmüddətli istismar risklərinə kompleks yanaşmaq zərurəti yaranır.

*Ayşən Vəli*

## "Barselona" 16-cı dəfə İspaniya Superkubokunu qazandı



**Futbol üzrə İspaniya Superkubokunun qalibi məlum olub. Həlledici görüşdə əzəli rəqiblər "Real"la "Barselona" üz-üzə gəlib. Səudiyyə Ərəbistanının Ciddə şəhərində keçirilən "El Klasiko" "Barselona"nın 3:2 hesablı qələbəsi ilə başa çatıb.**

Beləliklə, "Barselona" tarixində 16-cı dəfə İspaniya Superkubokunu qazanıb. Ötən mövsüm turnirin finalında "Barselona" "Real"ı 5:2 hesabı ilə məğlub etmişdi.


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
sesmediaqrup@gmail.com
sesqazeti@gmail.com**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet həftədə iki dəfə nəşr olunur

**Tiraj: 2000**